# “21 Azər”in ölməz qəhrəmanlarından
# - ƏLİŞAH TURHİDƏ-100



**Əlişah Turhide,**
*Astara-Həşpər mahalları üzrə fədai başçısı*

Sirr deyil ki, əksər Cənublu məsləkdaşımızın yaddaşının önəmli hissəsi istəsələr də, isətəməsələr də Azərbaycan Demokrat Firqəsindən keçir. Bu bir alın yazısıdır ki, qismətimizə yazılıb. Kimisi “21 Azər” hərakatından sinədəftər söhbət açır, kimisi uşaqlıq xatirələrindən danışır, kimisi də bədii ədəbiyyatdan, mətbuatdan oxuduqlarından. Birincilər demək olar tükənmək üzrədir, lap yaxınlarda sonuncu mögikanlarımızdan birinin qırxı çıxdı. Firidun Kazimi on dörd yaşında ikən Təbriz küçələrində və qatarlarda “Vətən yolu” və “Azərbaycan” qəzetlərini səyyar yayımlayırdı. Ömrünün sonunadək peşəsinə sadiq qaldı, uzun illər çapçı işlədi. Bu yaş və xatirə peşəsinə və siyasi yoluna sədaqətin rəmzi deyilmi?!

Söz, fikir, qələm əhli inciməsin - “21 Azər” hərakatının baş ideoloqu, memarı və yol göstərəni Seyid Cəfər Pişəvəri istər tribunalarda çıxış edəndə, istərsə də imzası ilə mətbu orqanlarda oxucuların görüşünə gələndə onu

dinləyənlərin və səsini eşidənlərin sayı-hesabı bilinmirdi. Hər imza, yazı hikmətamiz misallarla, proqram çıxışlarla başa çatdığından mübariz insanları ətrafına toplayırdı. Bu məktəb xalqımıza inqilab və döyüş qəhrəmanları Balaş Azəroğlunu, Mədinə Gülgünü, Zöhrab Tahiri, Məhəmməd Biriyanı... sevdirir.

İndi isə söz dünyamızın yeganə fəxri, İranlı Mühacirlər Yazarlar Birliyinin sədri, şair Tariyel Ümidlə bağlıdır. Buna görə də qınaq üçün ünvanlarımızın hədəfini başqa yerdə yox, özümüzdə axtarmalıyıq.

100 rəqəmi müqəddəslik, həm də anım deməkdir. Ona görə də məclisin böyüklü, kiçikliyindən asılı olmayaraq qeyd emək mənəvi borcumuzdur. Hazırlaşırıq ki, sevimli şairimiz Əli Tudənin yüz yaşını təntənə ilə keçirək. Bu çox yaxşıdır. Dünyalar qədər tanınan şairimizi belə də yadda saxlamaq borcumuzdur. Bəs belə desək adları, xidmətləri kölgədə qalmış, daha doğrusu buna ixtiyarları çatmayan insanlar... Baxın, Firqə rəhbərlərindən, funksionerlərdən kifayət qədər yazılır. Amma başqalarını demək olar unuduruq.

İndi dörd oğul, iki qız atasının tərcümeyi-halını, keçdiyi həyat yolunu işıqlandırmalıyam. Həyatının demək olar 60 faizi sirdir. Nədən, necə yazmalı məsələsi, qalır axtarışlarımıza.

Bu yaxınlarda AMEA-nın Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun aparıcı əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Sübhan Talıblı bildirdi ki, Bakı Dövlət Universitetinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru, dosent Lalə Əliyeva atası Əlişah Turhidənin yubileyini keçirtmək istəyir. Adını çəkdiyi ərazilər sırasında Salyanı da xatırladıb. Xahiş etdim ki, əlində olub-qalan materialları mənə göndərsin. İndi həmin sənədlərə baxıram. Əmisinin Abdulla Qəzvini olduğunu yazır. Maraqlandım ki, Qəzvini hara, Turhidə hara. Bu maraq əslində Salyanda işlədiyim illərdən qaynaqlanırdı.

Ümumiyyətlə, üzü Salyandan ta Astarayadək belə sirlər kifayət qədərdir, əksəriyyəti də bizim üçün naməlum qalıb. Şəklinə baxan kimi sima tanış gəldi. Lap rəhmətlik Abdullanın və qardaşı Adilin özü idi. Xaraktercə bir-birinin tərsi idilər. Abdulla həm də siyasətlə məşğul olurdu. ADF-nin Salyan rayon komitəsinin sədri idi. Rəhmətə gedənə qədər. Fəxr edirəm ki, bu şərəfli kişinin vəzifəsini ləyaqətlə daşımışam.

Əlişah Turhidə 1924-cü il aprelin 21-də Lənkəranda dünyaya gəlib. Onun igidliyinə söz ola bilməzdi. Müsəlləh döyüşçü kimi zabit igidliyi göstərirdi. Mayor rütbəsinə qədər yüksəlmişdi. Onun Vətənin o tayında göstərdiyi qəhrəmanlıqlar indiyədək sirr olaraq qalır. Gizli cəbhə döyüşçüsünün Həştpər bölgəsində göstərdiyi hünərlər indiyədək mətbuata açıqlanmayıb.

Bəs Adil necə? Belə danışırlar ki, o gecə yarısı insanlara zülm edən Zərqəm xanı necə arvadının yanından oğurlayıb, inqilabçılara təhvil vermişdi.

1946-cı ildə Şimali Azərbaycana qayıdanda Lənkəran sərhəd olduğuna görə orada yaşamağa icazə vermədilər və Salyan şəhərinə göndərdilər. Sərhədi keçəndə özü ilə İran ordusunun zabiti, mayor, fars əsilli Əli Nəvaiyə də bələdçilik etmişdi. Ə.Nəvai sonralar Əlişahın dəstəsinə qoşulanlardan idi. O, AMEA-nın Şərqşünaslıq İnstitutunda çalışırdı, sanballı mütəxəssis kimi də yadda qaldı. Təşkilat tərəfindən 1 otaqlı mənzillə təmin olunmasına kömək göstərildi.

Əlişah Cənubi Azərbaycanda kəşfiyyatda işləyirdi. Gizli ləqəbi "Ricah" idi. Bundan o tərəfə heç bir məlumatımız yox idi. DTK- nın kəşfiyyat idarəsinin rəisi

Bahadır Hüseynov yaxından tanıdığı bu şəxsə məsul vəzifələri həvalə edirdi. 1961-ci ilə qədər gizli şəkildə gecə ilə Araz çayını üzərək orada onu gözləyən milli fəallarla görüşürdü. Deyilənə görə onun Ümummilli Liderimiz Heydər Əliyevin də onunla görüşü olub. Amma məzmunundan xəbərimiz yoxdur. Bakının İçəri şəhərindəki dükanının həyəti qonaq-qara ilə dolu olardı. Xalq şairi Sabir Rüstəmxanlı istəyirdi ki, həyatından bir poves yazsın, amma heç vaxt razılıq ala bilmədi.

Vətəndən qayıdandan sonra hər il bu hərəkatla bağlı İran radiosu bir cox inqilabçıların adını şahın düşməni kimi elan edirdi. Qiyabi ölümə məhkum olunanlar arasında Əlişahın da adı çəkilirdi.

1992- ci ildə İranla sərhədlər açılanda İrandan məhz onun qəhrəmanlığını eşidən, özünü şəxsən görmək istəyən adamlar axtarıb tapırdılar. Bunlardan Məhəmməd adlı gənc atasından Əlişah haqqında eşitdiklərinə maraq göstərərək onu görməyə evinə gəlmişdi (dediklərinə görə Əlişah xanların var dövlətini alıb kasıblara verirmiş). Həmin illərdə Əlişahın Həşpərdəki evində yaşayan şəxs də gəlib ondan evin halallığını istəmişdir.

Maraqlıdır ki, qardaşların üçü də ticarələ bağlı sahələrdə işləyirdi. Mənim atam, Nünəkəran fədailərinin başçısı Məhəmməd Huşiməndi də Gəncədə çayçı idi. Doğrusu ticarətdə çalışanların əksəriyyətinə camaat heç də qibtə etməzdi. Yaşa dolandan sonra bu sirri aça bildik. Sən demə, mühacirlərin say-seçmələrinin əksəriyyətini bu sahədə yerləşdirmişdilər ki, həm çörək qazansın, həm də çörək versin. Bu üç qardaşın da xarakterində bunların kök salmasının sirləri bundan irəli gəlirdi...

Biz “21 Azər qəhrəmanlarının izi ilə” rubrikasında ilk yazımızı təqdim etdik. Əminik ki, təşəbbüsümüz düşərli olacaq, bu mövzuda yazılarla zənginləşəcəkdir. Allah bütün şəhidlərimizə və qəhrəmanlarımıza rəhmət eləsin!

***Rəhim Huseynzadə,***
***Azərbaycan Demokrat Firqəsinin sədri,***
***Əməkdar jurnalist***



ВИД НА ЖИТЕЛЬСТВО
В СССР
ДЛЯ ЛИЦ БЕЗ ГРАЖДАНСТВА
Действителен по
10 Марта 1972 г.

1. Фамилия Турхиде
Имя Алишан
Отчество Кудрат оглы
2. Число, месяц и год рождения 1912
3. Место рождения Ленкорань Азерб. ССР
4. Национальность азербайджанец
5. Гражданство на день прибытия в СССР иранское

ПЭ № 132841

М. П.

(подпись владельца)

— 1 —

6. Семейное положение женат
7. Когда прибыл в СССР 1946 г.
8. Цель приезда
9. Кем выдан вид на жительство Паспорт. отд. УМ МООП Азерб. ССР.
10. На основании каких документов выдан вид Решение Комиссии
Начальник отдела

М. П.

Вид выдан 10 Марта 1967

ПЭ № 132841

— 2 —



کارت صاحبینین امضاسی

فاملی ... آدی ...

آتاسینین آدی ... تولدی ۱۳۰۳

حزبه داخل اولدوغی تاریخ و محل

فرقه یه داخل اولدوغی تاریخ و محل ۱۳۲۴

حزب توده ایرانین م. ک. سینین ... دبیری

حزب توده ایرانین آذربایجان تشکیلاتی
آدف - م ک سینین صدری

**Şəkillərdə:** Alişah Turhidənin Cənubi Azərbaycanda verilmiş partiya bileti və qeyri vətəndaşlıq vəsiqəsi.